*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 508-512*

https://doi.org/10.62837/2025.7.508

**KİFAYƏT MƏMMƏDOVA ƏLİHEYDƏR QIZI**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun*
*"Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı*
*elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru*

# QULAMRZA SƏBRİ TƏBRİZİNİN LİRİKASINDA MİLLİ VƏ SİYASİ DÜCÜNCƏLƏR

**Açar sözlər:** siyasi lirika, poeziya, şair, şeirlər, elmi, təhlil etmək.

**Ключевые слова:** политическая лирика, поэзия, поэт, стихи, наука, анализ.

**Key words:** politisal lyrics, poetry, poet, poems, scientilic, to analyze.

XX əsr Azərbaycan poeziyasında azadlıq və nicat ideyaları aparıcı mövzulardan biri olmuşdur. Şairlər Vətənin səadəti uğrunda düşünərkən gördükləri zülm və ədalətsizlikləri ürəklərindən qopan odlu sözlərlə ifşa etmişlər. Qulamrza Səbri Təbrizi də ana dilinin məhrumiyyətə məhkum edilməsinə biganə qalmamış, bu dərdi bütün məsələlərdən üstün tutmuşdur. Onun poeziyasında dilin azadlığı, milli kimliyin qorunması və vətən sevgisi əsas qayə kimi səslənir. "Ana dili" şeiri isə xalqın milli duyğularını həyəcanla ifadə edən ən təsirli nümunələrdən biridir.

*Gün mənim,*
*Ay mənim,*
*Dərya mənim,*
*Tamam dünyalar mənim.*
*Amma günümü aldılar,*
*Ayı məndən ayrı saldılar.* [7, s. 5].

Xalq yazıçısı Mirzə İbrahimov "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nda qeyd edir: Azərbaycanın görkəmli ictimai xadimi, Mirzə İbrahimov "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" kitabında yazır: *"Böyük yazıçıların əsərləri Azərbaycan bədii fikrinin ölməzlik səhifəsində şərəfli yer tutur. Onlar ümum Azərbaycan, xüsusən Cənubi Azərbaycan və İran cəmiyyətlərinin həyatını, fikirlər, düşüncələr aləmini, feodal geriliyinin və müstəbid şah üsul-idarəsinin bu cəmiyyətlərin mənəvi aləmində açdığı yaraları elə dərindən, elə məharətlə və ürək yanğısı ilə, daima doğma torpağının taleyini düşünən qeyrətli oğulları kimi elə həyəcanla, ehtirasla təsvir etmişlər ki, onların əsərləri müasirlərini də, sonrakı nəsilləri də tərəqqi uğrunda mübarizəyə sövq etmiş, Azərbaycan xalqının ictimai fikrinə güclü təsir göstərmiş, xalqın azadlıq mübarizəsində böyük rol oynamışlar"* [1, s. 22].

Bu gün də həmin mübarizə Qulamrza Səbri Təbrizi kimi mübarizlərin mübarizəsində davam edir:

*Açdım ürəyimi hər kəsə,*
*Sevdim bütün insanları.*

*Yemədim, yedirtdim,*
*Xərclətmədim,*
*xərclədim başqalarına.*
*Biliyimi, elmimi verdim,*
*Vətən yolunda hər şeyimdən keçdim.* [4, s. 78]

Əvvəl-axır zalımların məhv ediləcəyinə, azad gələcəyə inam, vətən məhəbbətilə dolmuş və bu sevgi nəsildən-nəslə keçmişdir. Vətən eşqi, insanın fikrini hərəkətə gətirən, iradəsini möhkəmlədən ecazkar qüvvə həmişə cənub şairlərini ilhamlandırmışdır. Qulamrza Səbri Təbrizi də həmin şairlərin sırasındadır:

*Biri Arazın o tayında,*
*Biri bu tayında.*
*Aralarında tikanlı sərhəd*
*məftilləri.*
*Amma Xəzər birləşdirir*
*sularıyla.* [5, s. 55].

Filologiya elmləri doktoru, professor Tofiq Hüseynoğlu yazır: *"Qulamrza Səbri Təbrizi "düşüncələrini qaranlıq gecələrin çırağına çevirərək" yazdığı şeirlərində "insan sirləri"ni araşdırır, eşqi ilə qüdrətli olan insanı insana, vətənə, doğma torpağa bağlılığa, məhəbbətə çağırır, "dünyada insan" problemlərinin ayaq tutub yeriməsi, "fikirlərə, düşüncələrə, dillərə vurulan qandallar", oxucusu yoxa çıxdığı üçün "yetim qalan kitablar" şairi işgəncəli, əndişəli düşüncələrə çəkir. Qulamrza Səbri Təbrizinin torpaq, azadlıq, həsrət, ikiyə bölünmüş Vətənin birliyi mövzularında yazdığı şeirlərində bir vətənpərvər şairin kədəri, qüssəsi, eyni zamanda vətəndaşlıq qeyrətindən doğan güclü bir inam da var. Şairi qələmə sarılıb yazmağa sövq edən səbəb də məhz bu inamdır"* [6, s. 7].

Müasir Azərbaycan poeziyasını tədqiq edərkən tez-tez belə bir cəhətlə rastlaşırıq ki, söylənən poetik mülahizələr şəxsən yaşanmış hiss-həyəcanlardan, şəxsi təcrübədən doğmur. Bəzən iddia çox böyük olur, lakin bir tərəfdən şeirin səviyyəsi, digər tərəfdən isə mövzunun müəllif üçün doğmalıq dərəcəsi həmin iddianı doğrultmur. Çünki müəllifin həyatı ilə, yaradıcılığı ilə o iddia arasında üzvi bağlılıq yoxdur. Bu bədii-estetik təsirə ziyan vurur və təbii ki, sənətin gerçək, həyati, xəlqi bir sərvət kimi qavranmasına mane olur. Bədii iddia doğma hisslərin, yaşanmış ömrün təbii nəticəsi olduqda isə əksinə, həmin təsirin emosional gücü daha da artır.

"Qulamrza Səbri Təbrizinin seçdiyi həyat və mübarizə, yaradıcılıq yolu onun cəmiyyət hadisələrinə, habelə dünyaya eyni hüquqla gələn hər insanın necə yaşamasına, daha doğrusu, necə yaşamalı olmasına münasibətini müəyyənləşdirən çox güclü arqumentdir. O, özünün və sərbəst yaşamaq istəyən hər bir insanın əsas idealının hərəkət, mübarizə, döyüş olduğuna dərin inam bəsləyir. Bu qənaətin tərənnümünü qələmi üçün müqəddəs borc və yüksək şərəf hesab edir. Şairin bu baxışında insan həyatının başlıca amalının əksini tapdığını dünyada və şəxsi həyatında baş verən hadisələr

inkarı mümkün olmayan bir qətiyyətlə təsdiq edilmişdir. Həyatı və siyasi, mütərəqqi ədəbi qaynaqlardan su içən baxışı özünə qədər mənsub olduğu xalqın inanıb etiqad etdiyi bu qənaətdən bəhrələnmişdir: *"Həyat mübarizə meydanıdır. Qoç döyüşünə qoç dayanar!"* [2, s. 90].

İslam inqilabının qələbəsindən sonra bir-birini əvəz etmiş siyasi böhranlar, yaranmış mürəkkəb və gərgin vəziyyət şəraitində Cənubi Azərbaycan Demokratiyası, Tehranda və s. şəhərlərdə yaşayan azərbaycanlılar İran İslam Respublikasının ümumi mənafeyindən çıxış etməklə yanaşı, inqilabdan sonra verilmiş nisbi azadlıqlar çərçivəsində milli inkişaf sahəsində bəzi nailiyyətlər qazana bildilər. Böyük məhdudiyyətlə olsa da, Azərbaycan dilində kitablar, qəzet-jurnallar çap edildi, şəxsi təşəbbüslər əsasında Azərbaycan dilini öyrədən kurslar açıldı, bəzi siyasi təşkilatlar və cəmiyyətlər fəaliyyətə başladı, bir sıra mədəniyyət ocaqları, o cümlədən Tehran və Təbrizdə ayrı-ayrılıqda Azərbaycan yazıçılar və şairlər cəmiyyəti işə başladı və s. Bu məsələlərin qoyuluşunda vahid Azərbaycan xalqının mədəni irsinin mühüm bir hissəsini təşkil edən Şimali Azərbaycanın elm və mədəniyyəti ilə tanışlığa, burada elm, mədəniyyət və incəsənətin müxtəlif sahələrindəki nailiyyətlərdən faydalanmağa, bunların həyata keçirilməsi üçün zəruri olan əlaqələrin yaradılmasına, qiyabi də olsa, yaranmış mənəvi-mədəni əlaqələrin daha da canlandırılmasına Güney Azərbaycanda maarif və mədəniyyətin, elm və incəsənətin inkişafının rəhni kimi baxılması, bunların Güney Azərbaycan üçün örnək hesab edilməsi olduqca səciyyəvidir.

Bütün bunları Qulamrza Səbri Təbrizi "İran" adlandırdığı şeirində iki misrayla belə yekunlaşdırır:

*Cumublar dünya malına,*
*Qaldırıblar ruhaniyyət bayrağını* [7, s. 59].

Qulamrza Səbri Təbrizinin Azərbaycanın ən yaralı yeri olan Qarabağ probleminə özünəməxsus münasibəti vardır. Şair Qarabağ münaqişəsi başlandığı ilk gündən bütün rahatlığının pozulduğunu poetik bir dillə ifadə etmişdir. Eləcə də, qürbətdə yaşayan həmyerlilərimizin hər vasitə ilə Azərbaycana kömək etməyə çalışması vətənpərvərlik amalı kimi səciyyələndirilir.

Qarabağ problemini ətraflı bilən Qulamrza Səbri Təbrizi müsahibələrin birində deyir: *"Xalqımız uydurma Qarabağ problemi ilə, erməni təcavüzü ilə sınağa çəkilib. Sülh danışıqlarını aparmalıyıq, yoxsa bizə davakar damğası vurarlar. Ancaq bu da baş tutmasa, silah gücünə torpaqlarımızı azad etməliyik. Erməni tarixən əlaltı, nökər olub, onun-bunun sözü ilə oturub durub. Erməni kötək yeməsə, ağlı başına gəlməz. Qarabağı düşmən tapdağından xilas etməsək, bir ləkə kimi üstümüzdə qalacaq, bütün dünya qarşısında başıaşağı olacağıq. Odur ki, bu gün əsgərə, əsgər ailəsinə qayğı bir nömrəli vəzifəmiz olmalıdır. Kənardan hansısa köməyə bel bağlamamalıyıq. Vasitəçi dövlətlər öz mənafelərindən çıxış edirlər. Başımıza yalnız özümüz çarə qıla bilərik. Qondarma siyasətçilər, saxta vətənpərvərlər xalqda özünə inamı sarsıtsalar*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 508-512*

*da, vəziyyət ümidsiz də deyil. Torpağı qaytarmaq üçün xalqda bu inamı bərpa etmək lazımdır. Övladlarımızı Vətənə məhəbbət, düşmənə nifrət ruhunda tərbiyə etməliyik. Səməd Behrəngi deyir ki, "dosta məhəbbət müqəddəs olduğu kimi, düşmənə nifrət də müqəddəsdir"* [8, s. 134-135].

Filologiya elmləri doktoru, professor K.V.Nərimanoğlu Qulamrza Səbri Təbrizinin siyasi lirikasına münasibətini belə bildirir: *"Vətən həsrətli şeirlər parçalanmış Azərbaycanın özü kimidir: qüssəli, ümidli, dalğın və qətiyyətli. "Xəyallarımdakı Vətən" şeiri nostalji yükü ilə, "Bu məmləkət hara gedir" şeiri narahatlıq duyğusu ilə, "Azərbaycanın sədəqəyə ehtiyacı yoxdur" şeiri qeyrət çağırışı ilə, "Bütöv Azərbaycan" şeiri birlik, vəhdət ehtirası ilə diqqəti çəkir. Azərbaycan şairi Kamran Mehdi amerikalı D.Nissmanın epiqraf verdiyi kimi, Arazın altındakı torpağın bütövlüyünə inanırsa, Qulamrza Səbri Təbrizi bu bölünməz Vətənin ayla, səma ilə, günəşlə, hava ilə, küləklə və Xəzərlə birləşdiyini ifadə edir. "Necə bir Vətənə iki deyəsən" nidası insanın ürəyinə sancılan bıçaq kimidir. Bu ağrını yaşayan şairin əzabını duymamaq mümkün deyil! ...İllər keçəcək. Bütöv Azərbaycanın bütöv mədəniyyət, ədəbiyyat tarixi yaranacaq. Sərhədsiz söz sərvətimiz bir Vətəndə, bir dövlətdə olacaqdır. O zaman yaranacaq dərsliklərdə, kitablarda Qulamrza Səbri Təbrizinin şeirləri də olacaq. Bu şeirlər keçmişin ağrılarını yaşadacaq, gələcəyə inamlı addımlara rəvac verəcək"* [3, s. 4-5].

Qulamrza Səbri Təbrizi siyasi lirikasında bütün dünyanı düşündürən mövzulara toxunur:

*Danışırlar gecə-gündüz*
*sülhdən, barışıqdan,*
*Fəqət əl altından*
*salırlar davanı,*
*Satırlar silahı,*
*Vururlar ciblərə milyardları* [7, s. 99].

Sənətkar baxışının həyata nüfuz dərinliyi ilə, bu dərinliyin miqyas və vüsət ölçüləri ilə bütünlükdə sənətin bədiilik və sənətkarlıq gücü, onun həyatımızda tutduğu mövqeyin və oynadığı rolun məna və əhəmiyyəti də şərtlənmiş olur. Ədəbiyyatımızın uğur və kəsirləri, qüvvətli və zəif cəhətləri müasirliyin irəli sürdüyü ən aktual məsələlərə onun konkret bədii reaksiyasında xüsusilə aydın görünür. Cəmiyyətin ictimai əxlaqı, şəxsiyyətin düşüncə, ideal və arzuları haqqında real və möhtəşəm bədii həqiqətlər ümumxalq, ümumdövlət miqyaslı "mənəvi sərvət" əhəmiyyəti kəsb edir və ədəbiyyat məhz müasir inkişafı mərhələsində realizmin sınaqlarından çıxmış ənənələrinə sədaqətin sabitliyi və fasiləsizliyi ilə səciyyələnir. Qulamrza Səbri Təbrizi timsalında əsl xəlqilik, realizm prinsiplərinə əsaslanan elə əsərlər yaradır ki, onlarda ictimai problemlər həm də şəxsiyyətin fərdi taleyi səviyyəsində öz bədii həllini tapa bilir.

## Ədəbiyyat

1. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası: [3 cilddə]. Bakı: Elm, c.2. 1983, 579 s.

2. Nəbioğlu, S. Təbrizdən başlanan dünya. Bakı: Azərnəşr, 2010, 124 s.
3. Təbrizi, Q.S. Fikir dalğaları. Bakı: Səda, 1997, 108 s.
4. Təbrizi, Q.S. Sahilsiz dəniz. Bakı: Turan evi, 2009, 240 s.
5. Təbrizi, Q.S. Seçmə şeirlər. Bakı: Şirvannəşr, 2002, 252 s.
6. Təbrizi, Q.S. Sönməz ocaq. Bakı: Şirvannəşr, 2000, 172 s.
7. Təbrizi, Q.S. Xudafərin. Bakı: Turan evi, 2005, 392 s.
8. Təbrizi, Q.S. Zamanın nəbzi. Bakı: Turan evi, 2006, 336 s.

**Xülasə**

"Q.S.Təbrizinin poeziyasında siyasi lirialar" Azərbaycanın tanınmış şairi Qulamrza Səbrinin siyasi görüşlərinə həsr olunub. Məqalənin mövzusuna Azərbaycan ədəbiyyatında ilk dəfə toxunulur. Q.S.Təbrizinin siyasi görüşlərini təfərrüatı ilə təhlil edən müəllif onun şeirlərinin siyasi mahiyyətini açmağa çalışmışdır. Məqalədə Q.S.Təbrizinin Qarabağ münaqişəsinə obyektiv münasibəti də geniş şəkildə araşdırılmışdır.

**Кифаят Мамедова**

**НАЦИОНАЛЬНО-ПОЛИТИЧЕСКИЕ МЫСЛИ В ЛИРИКЕ ГУЛАМРЗЫ САБРИ ТАБРИЗИ**

**Резюме**

«Политическая лирика в поэзии Г.С. Табризи» посвящена политическим взглядам известного азербайджанского поэта Гуламрза Сабри Табризи. Эта тема впервые затрагивается в азербайджанской литературе. Подробно анализируя политические взгляды Г.С. Табризи, автор стремится раскрыть политическую сущность его стихов. В статье также подробно рассматривается объективное отношение Г.С. Табризи карабахскому конфликту.

**Kifayat Mammadova**

**NATIONAL AND POLITICAL THOUGHTS IN THE LYRICS OF GHULAMRZA SABRI TABRIZI**

**Summary**

"The political lyries in Q.S.Tabrizi 's poetry" is dedicated to the political meetings of e well-known Azerbaijan poet Qulamzade Sabri. The subject of the article is being touched for first Time in Azerbaijan literatüre. Analysing Q.S.Tabrizi's political meetings detail, the autlıor tried to reveal the political essence of his poems. As well Q.S.Tabrizi's objective attitude on Karabakh conflict has veen investigated in the article in detail.

**Rəyçi: Xuraman Qədimova**
*Filologiya üzrə fəlsəfə doktoru*